Azərbaycan Respublikasının

Vəkillər Kollegiyasının sədri Cənab Anar Bağırova

Dövlət Gömrük Komitəsinin Akademiyasının

"Hüquqşünaslıq" ixtisasının 4-cü kurs tələbəsi

Zeynallı Rəşid Razim oğlu tərəfindən

Ünvan: Bakı şəhər, Nərimanov rayonu, Faiq Yusifov 24

Telefon: 050-858-81-81

# TƏŞƏKKÜR MƏKTUBU

**Hörmətli, Anar müəllim!**

Son zamanlarda dövlətimizin hüquqi islahatlar konsepsiyası arasında vəkillik fəaliyyətinin mütərəqqi inkişafı hamıya yaxşı bəlddir. Mən də hüquq fakültəsində təhsil alan bir tələbə kimi Bakı Şəhəri 11 Saylı Vəkil Bürosunun müdiri Azər Quliyevə etdiyim müraciət əsasında 16.07.2021-ci il tarixindən Bakı Şəhəri 11 Saylı Vəkil Bürosunda ictimai əsaslarla "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikası qanununa uyğun olaraq könüllülük fəaliyyətində iştirak etdim. Vəkil Nuriyyə xanım Abbasovanın nəzarətində keçən 2 aylıq könüllülük fəaliyyətim zamanı uşaqlıq arzum olan Vəkillik peşəsinin bir sıra texniki vərdişlərinə yiyələndim və vəkilliyə olan marağım daha da artdı. Vəkil olmaq üçün hüquq təhsili qədər, praktiki biliklərin və zəruri peşə vərdişlərinin də əldə edilməsi vacibdir. Bu baxımdan Bakı Şəhəri 11 Saylı Vəkil Bürosunun peşəkar vəkil kollektivi mənə çox dəstək oldu. Könüllü fəaliyyətim zamanı hüquqi kazusa uyğun normanın seçilməsi, normalar arası kolliziyanın həll edilməsi, hüquqi sənədlərin tərtibi kimi mühüm praktiki vərdişləri əldə etdim. Vəkilin məhkəmə çıxışı, müvəkkilini necə müdafiə etməsi bir tələbə kimi mənim üçün çox maraqlı oldu. Azərbaycan vəkilliyinin inkişafındakı xüsusi rolunuza görə Sizə və könüllü fəaliyyətim dövründə mənə göstərdikləri xüsusi diqqətə və qayğıya görə Bakı Şəhəri 11 Saylı Vəkil Bürosunun kollektivinə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

*İmza:* Zeynallı

*Tarix:* 18.11.21

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3249
«22» 11 2021 il